BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№4 Sosial-siyasi elmlər seriyası 2010*

# MÜSTƏQİL DÖVLƏTLƏR BİRLİYİ ÇƏRÇİVƏSİNDƏ CİNAYƏTKARLIQLA MÜBARİZƏ VƏ ONUN TƏŞKİLATİ-İNSTİTUSİONAL MEXANİZMİNİN ƏSAS FƏALİYYƏT ASPEKTLƏRİ

**V.İ.QULİYEV**
***Bakı Dövlət Universiteti***
***Vugar.g.i@mail.ru***

*Məqalədə məsələlər kompleks şəkildə ardıcıllıqla şərh edilir. Müəllif çox maraqlı məsələlərə, misal üçün, «Müstəqil Dövlətlər Birliyinin hüququ» kimi anlayışa elmdə olan çox saylı fikirlərə, MDB-nin əsas orqanlarının fəaliyyətinə, onların beynəlxalq xarakterli cinayətlərin ayrı-ayrı növlərinə (terrorçuluq, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi) qarşı mübarizə mexanizminə münasibət bildirir. Məqalədə bu qurumun və ona üzv olan dövlətlərin normativ-hüquqi aktlarından, xüsusi ədəbiyyatdan yaradıcılıqla istifadə edilmişdir.*

Bütövlükdə cinayətkarlıqla mübarizə problemi və ona yaxın istiqamətlərdə bir sıra tədqiqatlar (1; 2; 6; 7) aparılmasına baxmayaraq, yenə də beynəlxalq hüquq elminin aktual problemlərindən hesab edilir.

Regional çərçivədə cinayətkarlıqla mübarizədə təşkilati mexanizmlərin rolu danılmazdır. Çünki bu, bir tərəfdən müəyyən münasibətlərin tənzimlənməsinə yönəlmiş beynəlxalq-hüquqi sənədlərin icrası üzərində nəzarət mexanizminin formalaşması, digər tərəfdən aiddiyəti sahədə dövlətlərin fəaliyyətinin əlaqələndirilməsində mühüm rol oynayır. Müvafiq müddəanı MDB məkanına və onun cinayətkarlıqla mübarizə sahəsində fəaliyyət göstərən təşkilati mexanizmlərinə aid etmək olar. Hətta aparılan elmi araşdırmalarda «MDB hüququ» adlandırılan hüquq sahəsinin (və ya bəzi hüquq ədəbiyyatlarında qeyd olunduğu kimi – hüquq sisteminin) formalaşması ilə bağlı fikirlərə də rast gəlmək mümkündür. Məsələn, A.Q.Xodakovun fikrincə, MDB hüququ dedikdə, Birliyə üzv-dövlətləri əlaqələndirən çoxtərəfli və ikitərəli müqavilələr sistemi, o cümlədən Təşkilatın orqanları tərəfindən qəbul olunan normativ aktların məcmusu başa düşülür. Bundan əlavə, model qanunvericilik aktları və onların əsasında qəbul olunan unifikasiya edilmiş qanunvericilik aktları da müvafiq hüquqi sistemin tərkib hissəsi sayılır [9, 43].

Bir sıra müəlliflər hesab edir ki, MDB hüququnu beynəlxalq hüququn bir hissəsi kimi qiymətləndirmək lazımdır [9, 27]. Bəzi tədqiqatçı-alimlər isə göstərirlər ki, MDB-nin hüquq sisteminin müsbət inkişaf tendensiyasını xarakterizə edərkən, inteqrasiya proseslərində maksimum nailiyyətlər əldə etmək məqsədilə müəyyən sahələrdə məcburi yurisdiksiyaya malik bəzi millətüstü elementlər vermək yolu ilə müvafiq Təşkilatın hər bir orqanının hüquqi statusunu gücləndirməyin məqsədəmüvafiq olması barədə fikirlər də hüquq ədəbiyyatlarında özünəməxsus yer tutur [11, 132].

MDB hüququnu beynəlxalq hüququn yarımsistemi kimi təhlil edən

B.M.Aşavskinin fikrincə, onun praktiki baxımdan beynəlxalq hüququn bütün sahələrində özünəməxsus yeri vardır. Çünki beynəlxalq hüququn sahələri istənilən halda MDB-yə üzv-dövlətlərin münasibətlərinə toxunur [9, 74].

Bütün bunlara baxmayaraq, müvafiq regional təşkilat çərçivəsində cinayətkarlıqla mübarizə tədbirləri davam etdirilməkdədir. Belə ki, MDB-nin əsas orqanlarından biri olan Dövlət Başçıları Şurasının narkotik vasitələr, psixotrop maddələr, və onların prekursorlarının qeyri-qanuni dövriyyəsi ilə mübarizədə əməkdaşlığın aktivləşdirilməsi haqqında 10 oktyabr 2008-ci il tarixli Bəyanatında müvafiq sferada dövlətlərin əməkdaşlığı çərçivəsində həyata keçirilməsi məqsədəmüvafiq hesab olunan fəaliyyət istiqamətləri öz əksini tapmışdır: mütəmadi olaraq narkotik vasitələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı birgə əməliyyatların, həmçinin bu sahədə proqram və layihələrin keçirilməsi; narkotik vasitələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı fəaliyyətin hüquq-mühafizə, profilaktik və digər aspektlərinə münasibətdə məlumat mübadiləsinin səmərəliliyinin yüksəldilməsi; narkomaniyanın profilaktikası, narkomanların müalicəsi və reabilitasiyası ilə bağlı birgə tədbirlərin görülməsi və təcrübə mübadiləsinin həyata keçirilməsi; narkotik vasitələrin və onların prekursorlarının qeyri-qanuni dövriyyəsinə qarşı fəaliyyətinə göstərən milli institutların yaradılmasına qarşılıqlı yardım göstərilməsi; Əfqanıstandan narkotiklərin qaçaqmalçılıq yolu ilə daşınmasına yol verilməməsi məqsədilə narkotik vasitələr və onların prekursorları üzərində nəzarətlə bağlı tədbirlərin razılaşdırılması; narkotik vasitələrin və onların prekursorlarının qeyri-qanuni dövriyyəsi nəticəsində əldə edilmiş gəlirlərin leqallaşdırılması (yuyulması) ilə birgə mübarizənin aparılması; müvafiq sahədə beynəlxalq əməkdaşlığın müqavilə-hüquqi bazasının təkmilləşdirilməsi, eləcə də dövlətlərin milli qanunvericiliyinin yaxınlaşdırılması və harmonizasiyası ilə bağlı işin həyata keçirilməsi; narkotik vasitələrin təhlükəliliyi barədə əhalinin hərtərəfli məlumatlandırılması üçün kütləvi informasiya vasitələrinin təşviqi, həmçinin narkotik vasitələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi ilə mübarizədə vətəndaş cəmiyyətinin birləşdirilməsi.

Bundan əlavə, narkotik vasitələrin yaratdığı təhlükənin təkcə dövlətlərə deyil, həm də bütün vətəndaş cəmiyyətinə qarşı çevrilməsinin danılmaz olduğu Bəyanatda öz əksini tapmışdır. Eyni zamanda, narkotiklərin qanunsuz istehsalının aradan qaldırılması üçün dünya ictimaiyyətinin səylərinin birləşdirilməsinin zəruriliyi xüsusi vurğulanmışdır (1, 67).

Bütün bunlarla yanaşı, MDB Dövlət Başçıları Şurası tərəfindən ayrı-ayrı cinayət növləri ilə mübarizəyə istiqamətlənmiş əməkdaşlıq proqramları qəbul olunmuşdur. Məs., MDB Dövlət Başçıları Şurasının 5 oktyabr 2007-ci il tarixdə Düşənbə şəhərində keçirilən iclasında qəbul olunmuş «2008-2010-cu illər ərzində terrorçuluq və ekstremizmin digər zorakı təzahür formaları ilə mübarizədə MDB iştirakçı-dövlətlərinin Əməkdaşlıq Proqramı haqqında» Qərar, «2008-2010-cu illər ərzində cinayətkarlıqla birgə mübarizəyə dair tədbirlər barədə Dövlətlərarası Proqram haqqında» Qərar, «2008-ci-2010-cu illər ərzində narkotik vasitələr, psixotrop maddələr və onların prekursorlarının qanunsuz dövriyyəsi ilə mübarizədə MDB iştirakçı-dövlətlərinin Əməkdaşlıq Proqramı haqqında» Qərar və s. Həmin proqramların əsas vəzifələrinə MDB iştirakçı-dövlətlərinin əməkdaşlığının beynəlxalq-hüquqi bazasının inkişafı, milli qanunvericiliyin təkmilləşdirilməsi və harmonizasiyası, razılaşdırılmış və ya birgə idarələrarası profilaktik, əməliyyat-axtarış tədbirləri və xüsusi

əməliyyatların keçirilməsi; əməkdaşlığın informasiya və elmi təminatı; kadrların hazırlanması, mütəxəssislərin ixtisasının artırılmasında əməkdaşlığın həyata keçirilməsi, beynəlxalq təşkilatlarla qarşılıqlı əlaqələrin yaradılması kimi məsələlər daxildir. Onların həyata keçirilməsi ilə bağlı görülən tədbirlər isə demək olar ki, eynilik təşkil edir: təşkilati-hüquqi tədbirlər, təşkilati-praktiki tədbirlər, informasiya-analitik fəaliyyət, elmi-metodik iş, kadr, maddi-texniki və maliyyə təminatı, nəzarət mexanizmi.

MDB Hökümət Başçıları Şurasının 1993-cü il qərarına əsasən, MDB ərazisində mütəşəkkil cinayətkarlıq və digər növ təhlükəli cinayətlərlə mübarizənin əlaqələndirilməsi üzrə Büro fəaliyyətə başlamışdır. Büronun funksiya və vəzifələrinə aşağıdakılar aiddir:

- mütəşəkkil cinayətkarlıq, terrorçuluq, narkotik vasitələrin qanunsuz dövriyyəsi və digər növ təhlükəli cinayətlərlə mübarizədə iştirakçı-dövlətlərin Daxili İşlər Nazirliklərinin qarşılıqlı fəaliyyətinin əlaqələndirilməsi;

- cinayətkar mühitin, beynəlxalq cinayətkar birliklərin təşkilatçıları və fəal iştirakçıları, onların cinayət əlaqələri, həmçinin cinayətkar mühitin liderləri barədə ixtisaslaşmış məlumat bankının formalaşdırılması;

1) daha təhlükəli cinayətlərlə;

2) ağır və xüsusilə ağır cinayətlərlə mübarizə məsələləri ilə bağlı MDB-nin iştirakçı-dövlətlərinin Daxili İşlər Nazirlikləri və digər hüquq-mühafizə orqanları arasında məlumat mübadiləsinin (o cümlədən əməliyyat-axtarış fəaliyyəti barədə) təmini;

- iştirakçı-dövlətlərin Daxili İşlər Nazirliklərinin əməkdaşlığının səmərəliliyinin yüksəldilməsi barədə təkliflərin işlənib hazırlanması;

- mütəşəkkil cinayətkarlıq, terrorçuluq, narkotik vasitələrin qanunsuz dövriyyəsi və beynəlxalq xarakterli cinayətlərin növləri ilə mübarizə barədə beynəlxalq müqavilələr və beynəlxalq xarakterli digər sənədlərin layihələrin işlənib hazırlanmasında iştirak etmə [12, 290-291].

MDB çərçivəsində cinayətkarlıqla mübarizənin həyata keçirilməsində Parlamentlərarası Assambleya da müəyyən rola malikdir. Belə ki, onun 28 oktyabr 1994-cü il tarixli «Müstəqil Dövlətlər Birliyinin inteqrasiya inkişafının hüquqi təminatı haqqında» Qərarına əsasən, cinayətkarlıqla mübarizə və ictimai qaydanın təmin olunması istiqamətində bir sıra model aktlar (həmçinin model qanunlar) işlənib hazırlanmış və qəbul olunmuşdur: 1996-cı il Cinayət Məcəlləsi, 1996-cı il Cinayət-Prosessual Məcəlləsi, 1996-cı il tarixli «Əməliyyat-axtarış fəaliyyəti haqqında» Model Qanun, «Zərər çəkmiş şəxslər, şahidlər və cinayət işləri üzrə ədalət mühakiməsinə kömək edən şəxslərin dövlət müdafiəsi haqqında» 1997-ci il Model Qanununu, «Silah haqqında» 1997-ci il tarixli Model Qanun və s. Buna baxmayaraq, aparılan elmi araşdırmalarda bu məsələyə heç də birmənalı yanaşma mövcud deyildir. Çünki bəzi müəlliflərin fikrincə, MDB-nin Parlamentlərarası Assambleyasının model qanunvericilik aktları, onun tövsiyə xarakterli səlahiyyətlərə malik orqanlarının qərar və digər hüquqi sənədləri, eləcə də dövlətdaxili orqanların deklarativ xarakterli birgə qərarları MDB hüququnun mənbəyi qismində çıxış edə bilməz [11, 112].

Terror təhlükəsi, eləcə də ekstremizmin transmilli xarakter kəsb etməsi MDB üzv-dövlətlərinin üzərinə terrorçuluq və ekstremizmin digər təzahür formaları ilə birgə mübarizə tədbirlərinin beynəlxalq sisteminin yaradılması sahəsində öz səylərini birləşdirmək öhdəliyini qoydu [8, 175-176]. Məhz buna görə də terrorizmlə və onun

ayrı-ayrı təzahür formaları, eləcə də ekstremizmlə mübarizə MDB-nin orqanlarının əsas fəaliyyət istiqamətlərindən biri sayılır. Həmin orqanlar sırasın Dövlət Başçıları Şurası, Hökumət Başçıları Şurası, Parlamentlərarası Assambleya, Xarici İşlər Nazirləri Şurası, MDB iştirakçı-dövlətlərinin Baş Prokurorlarının Əlaqələndirmə Şurası, Daxili İşlər Nazirləri Şurası və s. daxildir.

Bu istiqamətdə MDB Dövlət Başçıları Şurasının fəaliyyəti xüsusilə nəzərə çarpır. Belə ki, müvafiq qurumun 1 dekabr 2000-ci il tarixli Qərarına əsasən, MDB iştirakçı-dövlətlərinin Antiterror Mərkəzi yaradılmışdır. Həmin Qərarla təsdiq olunmuş Əsasnaməyə müvafiq olaraq, Mərkəz MDB-nin daimi fəaliyyət göstərən ixtisaslaşmış sahəvi orqanı olmaq etibarilə, beynəlxalq terrorçuluq və ekstremizmin digər təzahür formaları ilə mübarizə sahəsində iştirakçı-dövlətlərin səlahiyyətli orqanlarının qarşılıqlı fəaliyyətinin əlaqələndirilməsini təmin edir. Mərkəzin vəzifə və funksiyalarına isə aşağıdakılar aidddir:

- Beynəlxalq terrorçuluq və ekstremizmin digər formaları ilə mübarizədə iştirakçı-dövlətlərin əməkdaşlığının inkişaf istiqamətləri barədə MDB-nin Dövlət Başçıları Şurasının, həmçinin digər orqanlarının təkliflərinin işlənib hazırlanması;
- Beynəlxalq terrorçuluq və ekstremizmin digər formaları ilə mübarizədə iştirakçı-dövlətlərin səlahiyyətli orqanlarının qarşılıqlı fəaliyyətinin əlaqələndirilməsinin təmini;
- MDB-yə üzv-dövlətlərdə beynəlxalq terrorçuluq və ekstremizmin digər formalarının yayılması vəziyyəti, dinamikası və tendensiyası barədə daxil olan məlumatların təhlili;
- MDB Dövlət Başçıları Şurasının qərarı ilə təşkil olunmuş antiterror komanda-qərargah və əməliyyat-taktiki təlimlərin hazırlanması və keçirilməsində iştirak etmək;
- Beynəlxalq terrorçuluq və ekstremizmin digər formaları ilə mübarizədə əməliyyat-axtarış tədbirləri və kompleks əməliyyatların hazırlanması və keçirilməsi istiqamətində iştirakçı-dövlətlərə yardım göstərilməsi;
- Müvafiq məsələlərlə bağlı model qanunvericilik aktları, normativ sənədlər, həmçinin beynəlxalq müqavilələrin hazırlanmasında iştirak etmək;
- Razılaşdırılmış antiterror əməliyyatlarının işlənib hazırlanması və onların keçirilməsinə yardım göstərilməsi və s.

Bundan əlavə, Əsasnamədə Antiterror Mərkəzinin tərkibi və fəaliyyətinin təşkilati əsası öz əksini tapmışdır. Onu da qeyd etmək lazımdır ki, bəzi iştirakçı-dövlətlər Mərkəzin fəaliyyəti və normativ əsası ilə bağlı xüsusi rəylə çıxış etmişdir. Belə ki, Azərbayjan Respublikası bildirilmiş xüsusi rəydə Mərkəzin informasiya-analitik, məşvərətçi xarakter daşıması, o cümlədən onun maliyyələşdirilməsinin müvafiq fəaliyyət istiqamətdən irəli gəlməklə həyata keçirilməsi vurğulanmışdır [10, 526-532]. Təhlil olunan beynəlxalq təşkilat çərçivəsində digər orqanlar tərəfindən həyata keçirilən fəaliyyət də əməkdaşlığın bir hissəsini təşkil edir. Məsələn, 2002-ci il yanvar ayının 29-da Minsk şəhərində keçirilmiş Birliyin iştirakçı-dövlətlərinin Baş Prokurorlarının Əlaqələndirmə Şurası, Daxili İşlər Nazirlikləri Şurası, Təhlükəsizlik və xüsusi xidmət orqanlarının rəhbərləri Şurası, Sərhəd Qüvvələri Komandanları Şurası, Gömrük Xidməti Rəhbərləri Şurasının birgə iclasında MDB məkanında cinayətkarlıq və terrorçuluqla mübarizədə aparılan işin vəziyyəti geniş şəkildə təhlil olunmuşdur [15].

Cinayətkarlıqla mübarizədə MDB Daxili İşlər Nazirləri Şurasının da rolu xüsusilə qeyd edilməlidir. Müvafiq qurum çərçivəsində cinayətkarlığın ayrı-ayrı növləri ilə mübarizəyə yönəlmiş çoxsaylı sənədlər qəbul olunmuşdur ki, bu da müvafiq məkan daxilində birgə fəaliyyətin tənzimlənməsi və əlaqələndirilməsində özünəməxsus rola malikdir. Nümunə qismində 18 aprel 1996-cı il tarixli «Terrorçuluqla mübarizədə qarşılıqlı əlaqə haqqında» Qərarı; «Terrorçuluq və ekstremizmin digər təzahür formalarına qarşı mübarizədə MDB iştirakçı-dövlətlərinin Daxili İşlər Nazirliklərinin əməkdaşlığının səmərəliliyinin artırılması barədə» 10 mart 2000-ci il tarixli Qərarı [13, 223-238] və s. göstərmək olar.

MDB iştirakçı-dövlətləri təhlükəsizlik və xüsusi xidmət orqanları rəhbərləri Şurasının 15-16 may 2002-ci il tarixində Tbilisidə keçirilən 12-ci iclasında əsas diqqət beynəlxalq terrorçuluqla birgə mübarizə səylərinin möhkəmləndirilməsi ilə əlaqədar məsələlərə yönəlmişdir. Müvafiq qurumun həmin ilin sentyabr ayında Kişinyovda keçirilən 13-cü iclasında isə MDB Antiterror Mərkəzinin Mərkəzi-Asiya regionunda bölməsinin yaradılması ilə bağlı təklif işlənib hazırlanmış, həmçinin 2005-ci ilədək Mərkəzin Fəaliyyət Konsepsiyası razılaşdırılmışdır. Eyni zamanda, Mərkəzin terrorçuluqla mübarizə məsələləri ilə məşğul olan beynəlxalq mərkəz və təşkilatlarla əlaqələrinin qurulması və təşviq olunması qaydası müəyyənləşdirilmişdir [14, 838].

Məhz həmin iclasın nəticəsi kimi 7 oktyabr 2002-ci il tarixli qərara əsasən, Qırğızıstan Respublikasının Bişkek şəhərində MDB iştirakçı-dövlətlərinin Antiterror Mərkəzinin Mərkəzi-Asiya regionu üzrə bölməsi yaradılmışdır. MDB üzv-dövlətlərinin Daxili İşlər Nazirləri Şurasının fəaliyyətinin bir hissəsini həm də narkotik vasitələrin qeyri-qanuni dövriyyəsi ilə mübarizə məsələləri təşkil edir. Belə ki, adı çəkilən qurumun «Narkotik vasitələrin və psixotrop maddələrin qeyri-qanuni dövriyyəsi ilə mübarizədə MDB iştirakçı-dövlətlərinin daxili işlər orqanlarının qarşılıqlı fəaliyyətinin aktivləşdirilməsinə dair tədbirlər haqqında» 17 aprel 1996-cı il tarixli Qərarında müəyyən məsələlərin həyata keçirilməsi ilə bağlı dövlətlərin daxili işlər orqanlarına yönəlmiş tövsiyələr öz əksini tapmışdır: öz ölkələrində narkovəziyyət, həmçinin narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə mübarizə sahəsində görülən tədbirlər barədə yarımillik və illik məlumatların MDB iştirakçı-dövlətlərinin daxili işlər nazirlikləri arasında mübadiləsini həyata keçirmək; narkotik tərkibli bitkilərin qanunsuz yetişdirildiyi sahələrin məhv edilməsi, eləcə də narkotik vasitələrin aparılma və gətirilmə kanallarının bağlanması ilə bağlı razılaşdırılmış müddətdə genişmiqyaslı birgə əməliyyatların keçirilməsi təcrübəsinə dair qarşılıqlı razılaşmaların yenilənməsi; narkotik vasitələrin və psixotrop maddələrin tibbi və ya elmi məqsədlə istehsalı, saxlanması, ixracı və idxalı, istifadəsi, həmçinin humanitar yardım xətti ilə MDB-yə üzv-dövlətlər tərəfindən əldə olunmuş narkotik tərkibli dərman preparatları üzərində nəzarətin daha da gücləndirilməsi və s.

Daxili İşlər Nazirləri Şurasının 5 iyun 1999-cu il tarixli «Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə mübarizə sahəsində əməkdaşlığın aktivləşdirilməsinə dair tədbirlər barədə» Qərarı bir sıra mühüm müddəaları özündə birləşdirməklə yanaşı, həm də konkret növ narkotik vasitələrin – tiryək və heroinin istifadəsinə qarşı mübarizəyə dair əməkdaşlıq istiqamətlərini də müəyyənləşdirmişdir. Həmin istiqamətlərə aşağıdakılar aiddir: narkotiklərlə əlaqədar cinayətkar fəaliyyət nəticəsində əldə olunmuş gəlirlərin leqallaşdırılmasında iştirak edən fiziki və hüquqi

şəxslər barəsində məlumat mübadiləsinin həyata keçirilməsi; Birlik ölkələrinin dövlət sərhədi vasitəsilə narkotik vasitələrin tədarük edilməsinin qarşısının alınması ilə bağlı idarələrarası kompleks əməliyyat-profilaktik tədbirlərin keçirilməsinə dair təcrübənin artırılması; MDB ərazisində narkotiklərin qanunsuz dövriyyəsinə qarşı səmərəli mexanizmlərin işlənməsinə dair təkliflərin, eləcə də Mərkəzi Asiya regionundan tiryək və heroin qaçaqmalçılığının ləğv edilməsi ilə bağlı tədbirlərin hazırlanması və s.

Müvafiq qurumun 7 sentyabr 2002-ci il tarixli «Narkotik vasitələrin və psixotrop maddələrin qeyri-qanuni dövriyyəsi ilə mübarizədə qarşılıqlı fəaliyyətin aktivləşdirilməsi barədə» Qərarı isə bu istiqamətdə bir sıra müddəaları özündə təsbit etmişdir:

- mütəmadi şəkildə razılaşdırılmış operativ-profilaktik və operativ-əməliyyat tədbirləri, həmçinin xüsusi əməliyyatların keçirilməsinin təşkili;
- zəruri hallarda narkotiklərin qanunsuz dövriyyəsi ilə əlaqədar cinayət işlərinin istintaqı üçün birgə istintaq-əməliyyat qruplarının yaradılması;
- narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə mübarizəyə dair birgə elmi araşdırmaların aparılması, həmçinin narkotik məzmuna malik maddələrin aşkar olunması üçün müasir texniki vasitələrin birgə işlənib hazırlanması və tətbiqi;
- kadr hazırlığı və ixtisasartırma məsələlərində beynəlxalq əməkdaşlığın genişləndirilməsi.

Ümumiyyətlə, müəyyən zəif və nöqsanlı cəhətlərinin mövcud olmasına baxmayaraq, müasir dövrdə MDB-nin cinayətkarlıqla mübarizə istiqamətində fəaliyyət göstərən təşkilati mexanizmləri üzv-dövlətlərin işinin əlaqələndirilməsində özünəməxsus rol oynayır.

## ƏDƏBİYYAT


1. Əliyev Ə.İ. İnsan hüquqlarının beynəlxalq-hüquqi müdafiəsi. Dərslik. Bakı: BDU, 2009, 490 s.
2. Hüseynov L.H. Beynəlxalq hüquq: Dərslik. Bakı: ABU, 2008, 240 s.
3. Hüseynov L. H. İnsan hüquqlarının beynəlxalq müdafiəsi: Dərs vəsaiti. Bakı: ABU, 2008, 160 s.
4. Qəfərov M.S. Azərbaycan Respublikasının cinayət prosesində şəxsiyyətin hüquqi vəziyyəti: nəzəri və təcrübi məsələlər. Bakı: Qanun, 2008, 340 s.
5. Seyidov Ə.C. Azərbaycan Respublikası məhkəmə icraatında beynəlxalq hüquq normalarının tətbiqi. Bakı: Gənclik, 2002, 242 s.
6. Məmmədov R.K. Beynəlxalq cinayət hüququ və milli cinayət hüququnun qarşılıqlı fəaliyyəti // Beynəlxalq münasibətlər və beynəlxalq hüquq fakultəsinin 10 illiyinə həsr olunmuş elmi konfransın materialları. Bakı, 2002, s. 256-263.
7. Агаев И. Б. Уголовное право АР. Общая и Особенная части: Учебник. М.: Юрист, 2009, 832 с.
8. Абуталыбов И.Г. Юрисдикция межправительственных организаций в отношении международного терроризма. Баку: БГУ, 2007, 343 с.
9. Аналитический вестник аппарата Совета Федерации Федерального собрания РФ. № 21. М.: 1997, 658 с.
10. Борьба с международным терроризмом. Сб. документов. Сост. К.А.Бекяшев, М.Р.Авясов. М.: 2005, 845 с.
11. Кириленко В.П., Мишальченко Ю.В. Право Содружества Независимых Государств в системе международного права // Московский журнал международного права, 2003, № 3, с. 104-120.

12. Международное право: Учебник / Под ред. К.К.Гасанова. М.: М-Норма, 2009, 546 с.
13. Международные-правовые основы борьбы с терроризмом. Сборник документов. Сост. В.С.Овчинский. М.: Юристь, 2003, 480 с.
14. Международное публичное право: Учебник. 3-е изд., перераб. и доп / Отв. ред. К.А. Бекяшев. М.: ТК Велби, Проспект, 2004, 980 с.
15. Организованная преступность и международный терроризм: новые угрозы и пути противодействия, исполнительный комитет Содружества Независимых Государств. Минск: МГУ, 2002, 380 с.

## БОРЬБА С ПРЕСТУПНОСТЬЮ В РАМКАХ СОДРУЖЕСТВА НЕЗАВИСИМЫХ ГОСУДАРСТВ И ОСНОВНЫЕ АСПЕКТЫ ДЕЯТЕЛЬНОСТИ ЕГО ОРГАНИЗАЦИОННО-ИНСТИТУЦИОНАЛЬНОГО МЕХАНИЗМА

**В.И.ГУЛИЕВ**

### РЕЗЮМЕ

Организационные механизмы в осуществлении борьбы с преступностью играют важную роль как в универсальном, так и в региональном уровнях. В последнее время в данной сфере существуют необходимые контрольные органы в рамках Содружества Независимых Государств. Это, особенно, превосходствует в борьбе с терроризмом и его различными проявлениями, с незаконным оборотом наркотиков, а также в борьбе с организованной преступностью. Надо отметить и то, что по сравнению с некоторыми другими региональными организациями (например, с Советом Европы, Европейским Союзом), в деятельности данных организационных механизмов существует определенные недостатки. А это делает необходимым осуществление определенных преобразований в данной сфере.

## STRUGGLE AGAINST CRIMINALITY IN THE FRAMEWORK OF CIS AND MAIN ACTIVITY ASPECTS OF ITS ORGANIZATIONAL MECHANISM

**V.I.GULIYEV**

### SUMMARY

Organizational mechanisms are playing important role in struggle against criminality in the framework of universal or regional level. There are control bodies which activate at the same spheres in the framework of CIS lately. It’s especially formed against terrorism and its different appearance forms, illicit circulation of narcotics, and organized crimes. Yet, there are certain insufficiencies of these organizational mechanisms` activity in comparison with some regional international organizations (for example, Council of Europe, European Union etc.) which in turn necessitates realization of relevant reforms.